# AĞDAM ƏDƏBİ MƏCLİSİ TƏQDİM EDİR



MEHRİ AĞDAMLI

## ÜRƏYİMDƏ SEVGİ QALASIN TİKDİM

Alışdım sevginin xoş anlarına,
Ürəyimdə sevgi qalasın tikdim.
Gözlərində hər gün gördüm özümü,
Ömrü məhəbbətə hədiyyə etdim,
Ürəyimdə sevgi qalasın tikdim.

Əllərim əlində, gözüm gözündə,
Bilirsən həyatda səni sevmişdim.
Sənsiz bu dünyanı anmadım bir an,
Sənli günlərimdə olmadı dərdim,
Ürəyimdə sevgi qalasın tikdim

Mehrini bu oda gözlərin saldı,
Ay mənim vüqarım, döyünən qəlbim,
Baxışın əqlimi başımdan aldı,
Xəyallar dolusu dünyaya saldı,
Ürəyimdə sevgi qalasın tikdim.

## YENƏ PAYIZ, GƏLDI XƏZANLI GÜNLƏR

Titrəyib yer üzü tutulub yaman.
Yenə payız, gəldi xəzanlı günlər.
Məni həsrət qoydü vətənə zaman.
Töküldü torpağa quru xəzəllər.
Yenə payız, gəldi xəzanlı günlər.

Titrədi qəlbimin incə telləri.
Ötürdüm bu acı ötən illəri.
Xəzan yaman vurdu qönçə gülləri.
Ürək yaman əsdi titrədi tellər.
Yenə payız, gəldi xəzanlı günlər.

Ömrün payızında ilişdim qaldım.
Qərib bir diyarda həsrətlə yandım.
Buludtək dolsam da heç boşalmadım.
Mehrini çox gəzdi o qərib ellər.
Yenə payız, gəldi xəzanlı günlər.

## VƏTƏNƏ ÇATDIRIN MƏNİ

Xəstəyəm bu yatağımda,
Vətənə çatdırın məni.
Məlhəmimdə Ağdamımda
Yurduma aparın məni,
Vətənə çatdırın məni.

Şuşadan bir xəbər verin,
Kəlbəcərdən gül gətirin,
Xarıbülbülü iylədin.
Yurduma aparın məni,
Vətənə çatdırın məni.

Laçın boyu bir gəzdirin,
Həkəri çayda çimdirin,
Qubadlıda moruq verin.
Yurduma aparın məni,
Vətənə çatdırın məni.

Meşə boyu Kəlbəcərdə,
İstisuda, Xankəndində,
Qırxpilləkən olan yerdə,
Yurduma aparın məni,
Vətənə çatdırın məni.

Qubadlıya nəzər salım,
Zəngilanda bir az yatım,
Xocavənddə var bayatım.
Yurduma aparın məni,
Vətənə çatdırın məni.

Fizulidə Əşrəfimə,
Lazım ağa Seyidimə,
Fuğara seyid and yerimə.
Yurduma aparın məni,
Vətənə çatdırın məni.

Ağdərədə bir dayanın,
O qarlı dağlara baxın,
Araz boyu dərdlə axın.
Yurduma aparın məni,
Vətənə çatdırın məni.

Təbriz dedim dilim yandı,
Göyçə elim de hardadı?
Qars yolları sazaq-qardı.
Yurduma aparın məni,
Vətənə çatdırın məni.

Ərdəbildə bir qardaşım,
İrəvanda var göz yaşım,
Ağlar qalıb torpaqlarım.
Yurduma aparın məni,
Vətənə çatdırın məni.

Gözlərimi eldə yumum,
Əllərdədi mənim yurdum,
Orda olsun qoy vücudum.
Yurduma aparın məni,
Vətənə çatdırın məni.

## *BU DÜNYA YAMAN DÜNYADIR*

Göylər bağlı, yerlər bağlı,
Bu dünya yaman dünyadır.
Sinəm olub çarpaz dağlı,
Bu dünya yaman dünyadır.

Haq nahaqa möhtac qalır,
Dərd ürəyi yaman yarır,
Daş kəsəyi sel aparır,
Bu dünya yaman dünyadır.

Ömür gedir gilə-gilə,
Həsrətlisən ötən ilə,
Dərd çəkirsən bilə-bilə,
Bu dünya yaman dünyadır.

Mehri deyər qocalıram,
Bu dünyadan yaralıyam,
Bir kədərin qonağıyam,
Bu dünya yaman dünyadır.

## *SEVGİ DOLU BİR DÜNYAMSAN, AY VƏTƏN*

Ana deyib torpağına sarıldım,
Sevgi dolu bir dünyasan, ay vətən.
Qucağında illər ötdü, boy atdım,
İlham, vüqarımı almışam səndən,
Sevgi dolu bir dünyasan, ay vətən.

Üçrəngli bayrağın and yerim oldu,
İgidlər yolunda müntəzəm durdu,
Ordum düşmənlərin gözünü oydu.
İlham, vüqarımı almışam səndən,
Sevgi dolu bir dünyasan, ay vətən.

Mehri deyər ölüm haqdı yolunda,
Neçə şəhid uyuyub torpağında,
Bir əsgərəm mən də cəbhə boyunda.
İlham, vüqarımı almışam səndən,
Sevgi dolu bir dünyasan, ay vətən.

## *ŞƏHİDLƏR ÖLMƏZ, VƏTƏN BÖLÜNMƏZ*

Tarix yaşadacaq həmişə sizi,
Şəhidlər heç ölməz, vətən bölünməz.
Müqəddəs tutacaq şəhidimizi,
İgidlik yaşayar, igidlik ölməz,
Şəhidlər heç ölməz, vətən bölünməz.

Qanınızla yazdız siz adınızı,
Vətən deyib tökdünüz qanınızı,
Verdiz vətən üçün son damlanızı,
İgidlik yaşayar, igidlik ölməz,
Şəhidlər heç ölməz, vətən bölünməz.

Siz ellər oğlusuz, elin qurbanı,
Qazandız müqəddəs şəhid adını,
Lərziyə gətirdiz, dağı, qayanı,
İgidlik yaşayar, igidlik ölməz,
Şəhidlər heç ölməz, vətən bölünməz.

# MƏNİM BAYRAĞIM

Yellən üç rəngli bayraq Vətənimin üstündə.
Qoy düşmənlər kor olsun bayrağımı görəndə.
And yeri olmusunuz mənim odlar elimdə,
Elin qeyrət rəmzısız, gülüstan vətənimdə.
Qoy düşmənlər kor olsun bayrağımı görəndə.

Mehri də uzaqlardan sənə baxsın, fəxr etsin.
Türk bayrağı səninlə səmaları hey dəlsin.
Simvolusan yurdumun, qoy bunu ellər bilsin,
Qalxsın bütün dünyada hey calınsın təbil də,
Qoy düşmənlər kor olsun bayrağımı görəndə.

# VUR, ƏSGƏRİM, VUR

Azad nəfəs almır torpağım, elim,
Düşmənin belindən vur, əsgərim, vur.
Mən də qəriblikdən vətənə gəlim,
Düşmənin belindən vur, əsgərim, vur.

Köçkünlük adını sil alnımızdan,
Çıxmır o torpaqlar heç yadımızdan,
Qovun düşmənləri siz aramızdan,
Düşmənin belindən vur, əsgərim, vur.

Mehri həsrətlidir Ağdam elinə,
Səs verin, ey dünya, mənim səsimə,
Dönsün bu millətim bir gün evinə,
Düşmənin belindən vur, əsgərim, vur.

# YOXLUĞUNA EL-OBA AĞLAR

*Azərbaycanın milli qəhrəmanı Azərbaycan prokuroru İsmət Qayıbova*

Bir elin oğluydun, vətən qeyrətli,
Sənin yoxluğuna el-oba ağlar.
Cəsarət, fədəkar, həm də hünərli,
Əbədiyyət səni qoynunda saxlar,
Sənin yoxluğuna el-oba ağlar.

"Sən getdin, elə bil dünya boşaldı",
Göy üzünü qara buludlar aldı,
Şəhidlik zirvəsi səni apardı.
Xəbəri gətirən quş qanad salar,
Sənin yoxluğuna el-oba ağlar.

Vətənin düşünən bir beyni idin,
Elə yayılmışdı şanın-şöhrətin.
Hamıya bəlliydi qeyrət təməlin,
Pusquya saldılar səni alçaqlar,
Sənin yoxluğuna el-oba ağlar.

Neçə igidlərlə bir şəhid oldun,
İgidlik təməlin qeyrətlə qoydun.
Çatmadı hayına sənin də ordun,
Qarakənd torpağı, sənə yas saxlar,
Sənin yoxluğuna el-oba ağlar.

Mehri də yazdıqca əlləri əsir,
Kədər bıçaq olub, qəlbini kəsir.
İgid qəhrəmanım Qayıbov deyir,
Əbədiyyət səni qoynunda saxlar,
Sənin yoxluğuna el-oba ağlar.

# LAÇIN QARTALI

*Vətənin qəhrəman övladı Əsədov Toğrul Xankişi oğlunun şərəfinə həsr edirəm*

Dağlara səs saldın, deyib gəlirəm,
Elin şah vüqarı, Laçın Qartalı.
Qəlbin yaralıydı yaxşı bilirəm,
Dağlara şığıdın, Laçın övladı,
Elin şah vüqarı, Laçın Qartalı.

Dolama yollardan zəfərlə keçdin,
Dağlar bulağından sulardan içdin,
Zəfər bayrağıyla elinə girdin,
Dağlara şığıdın, Laçın övladı,
Elin şah vüqarı, Laçın Qartalı.

Mehri heyran oldu şah vüqarına,
Zəfərlə sən çatdın arzularına,
Sən müjdə gətirdin öz torpağına,
Dağlara şığıdın, Laçın övladı,
Elin şah vüqarı, Laçın Qartalı.

# ŞƏHİDLƏR OLMÜR

Şəhidlik zirvəsi uca zirvədir,
Şəhidlər yaşayır, şəhidlər ölmür.
Önlar xəyallarda, ürəklərdədir,
Şəhidlər yaşayır, şəhidlər ölmür.

El yolunda alnı açıq getdilər,
Çiçək olub ürəklərdə bitdilər.
Onlar bizim üçün şəhid getdilər,
Şəhidlər yaşayır, şəhidlər ölmür.

Ay ellər əreni, ay dağlar öğlu,
Sən seçdin həyatda bu qeyrət yolu.
Qoy hörsün qərənfil həm sağı-solu,
Şəhidlər yaşayır, şəhidlər ölmür.

Mehriyəm, bir şəhid olardım mən də,
Qəribəm, coşuram vətən deyəndə.
Qaldır silahını, ay oğul, sən də
Şəhidlər yaşayır, şəhidlər ölmür.